# Azərbaycan – Moldova əlaqələrinin inkişaf perspektivləri genişlənir

***Son illər Azərbaycanın beynəlxalq aləmdə mövqeyi daha da möhkəmlənib, ən nüfuzlu təşkilatlarda layiqincə təmsil olunub, siyasi sahədə böyük nailiyyətlər qazanılıb. Dünyada böhran proseslərinin hələ də davam etməsi, hətta qabaqcıl ölkələrin ciddi maliyyə problemləri ilə üzləşməsi fonunda Azərbaycanın davamlı iqtisadi inkişafı, quruculuq işlərinin geniş vüsət alması, əhalinin həyat səviyyəsinin yüksəlməsi, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının sürətlənməsi siyasi təhlilçilər və ekspertlər tərəfindən yüksək qiymətləndirilir.***

***Moldova Respublikasının Prezidenti İqor Dodonun Azərbaycana səfəri münasibətlərimizin inkişafında mühüm mərhələ olacaq, bizim münasibətlərə zəruri dinamizm verəcək və çox mühüm məsələlərin həllinə kömək edəcək. Bununla da ölkələrimizi və xalqlarımızı yaxınlaşdıracaq.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycanla çox yaxşı ikitərəfli münasibətlərimiz var. Buna görə də ümid edirəm ki, iki ölkənin dövlət başçısının görüşü ikitərəfli münasibətlərimizə yeni impuls verəcək. Çünki potensial çox böyükdür.***

**İqor DODON**
**Moldova Prezidenti**

Azərbaycan Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən, dinamik və hərtərəfli inkişaf yolu keçən respublikamızın iqtisadi qüdrəti və fəal xarici siyasəti beynəlxalq aləmə daha sıx inteqrasiyanı, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin edib.

Şübhəsiz ki, bu uğurlara Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasına əsaslanan uzaqgörən siyasəti nəticəsində nail olunub. Ölkəmiz tarix baxımından qısa müddət ərzində sıçrayışlı iqtisadi inkişafı reallaşdırıb, bütün sahələrdə köklü islahatlar apararaq mərkəzləşdirilən planlı sistemdən bazar iqtisadiyyatına keçidi başa çatdırıb, böyük transmilli layihələrin təşəbbüskarı və aparıcı iştirakçısı olub, kosmosa peyk çıxaran dövlətlər sırasına qoşulub, yeni inkişaf mərhələsinə qədəm qoyub.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, hazırda ölkəmiz mürəkkəb regionda bir sabitlik adasıdır və təbii ki, bu da davamlı iqtisadi inkişafın başlıca amillərindən biridir.

Ölkəmizin dinamik sosial-iqtisadi inkişafı, eyni zamanda, Azərbaycanın dünya birliyinə inteqrasiyasının gücləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır. Möhtərəm dövlət başçımızın müəyyənləşdirdiyi siyasətə uyğun olaraq Azərbaycanın xarici əlaqələrinin genişləndirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici dövlətlərlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsində mühüm önəm daşıyır, ölkəmizin dünyada nüfuzunu daha da artırır.

Bu gün Azərbaycan ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir. Son illərdə bu sahədə müsbət nəticələr əldə edilib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlər müəyyənləşdirilib. Prezident İlham Əliyevin xarici dövlətlərin başçıları ilə keçirdiyi görüşlər, eləcə də Azərbaycanın və tərəfdaş ölkələrin müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bu işə güclü təkan verib.

Azərbaycanın ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafında Moldova Respublikası önəmli rol oynayır. Xatırladaq ki, hər iki ölkə xalqları arasında həmişə dostluq münasibətləri olub. Həmin münasibətlər bu gün də davam etməkdədir. Respublikamızda Moldova, adıçəkilən ölkədə isə Azərbaycan diasporu fəaliyyət göstərir.

İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il mayın 18-də qurulub. 2004-cü ildə Moldova Ukraynadakı səfirini, eyni zamanda, Azərbaycana da təyin edib. 2005-ci ilin martında isə Azərbaycan Respublikasının Moldovada səfirliyi fəaliyyətə başlayıb.

Azərbaycanla Moldova arasında əlaqələrin inkişaf etməsində hər iki dövlət başçısının qarşılıqlı səfərləri, eləcə də ölkə prezidentlərinin müxtəlif beynəlxalq təşkilatlarda görüşləri önəmli rol oynayıb. Yeri gəlmişkən, 1997-ci il noyabrın 26-28-də Moldova Prezidenti Petru Luçinskinin Azərbaycana ilk rəsmi səfəri iki ölkə arasında əlaqələrin genişləndirilməsinə müsbət təsir göstərib. Həmin vaxt ulu öndər Heydər Əliyev Moldova Prezidenti Petru Luçinski ilə görüşərək ikitərəfli münasibətlər, beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlığa dair məsələlər, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında müzakirələr aparıblar. Bu görüş Azərbaycan və Moldova arasında yüksək səviyyədə keçirilən ilk görüş kimi yadda qalıb. Bundan bir il sonra, 1998-ci il avqustun 9-da isə ümummilli liderimiz və Petru Luçinski Yaltada Leonid Kuçmanın 60 illik yubileyində növbəti dəfə görüşüblər. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər geniş müzakirə edilib.

İki ölkə arasında əlaqələrin inkişafına Moldova Prezidenti Vladimir Voroninin 2004-cü il oktyabrın 26-27-də Azərbaycana rəsmi səfəri də müsbət təsir göstərib. Xatırladaq ki, həmin səfər çərçivəsində reallaşan görüşdə qarşılıqlı münasibətləri tənzimləyən bir sıra sənədlər imzalanıb. Prezident İlham Əliyevlə Moldova Prezidenti Vladimir Voronin Azərbaycan və Moldovanın təcavüzkar separatizmin nəticəsi olan işğala məruz qaldıqlarını, buna son qoyulması, ölkələrimizin ərazi bütövlüyünün beynəlxalq hüquq normaları əsasında bərpa edilməsi üçün beynəlxalq təşkilatların səylərinin gücləndirilməsinin vacibliyini xüsusi vurğulayıblar.

Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci il aprelin 21-də Moldovada rəsmi səfərdə olarkən də həmkarı Vladimir Voroninlə görüş zamanı beynəlxalq və regional xarakterli məsələlər müzakirə olunub. Dövlət başçıları beynəlxalq səviyyədə tanınmış sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyini bir daha təsdiqləyərək, təcavüz aktlarına və suveren dövlətlərin ərazi bütövlüyünə qarşı yönələn təhdidlərə qarşı beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsinin vacibliyini vurğulayıblar.

Bu gün iki ölkə arasında iqtisadi əlaqələr yüksək səviyyədə olmasa da, inkişaf etməkdədir. Moldova həm ikitərəfli, həm də Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat (GUAM) və s. təşkilatlar çərçivəsində Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlıdır.

Ötən müddətdə Azərbaycanla Moldova arasında iqtisadi əməkdaşlığın inkişafı istiqamətində də bir sıra tədbirlər həyata keçirilib, hər iki ölkənin rəsmi şəxsləri tərəfindən iqtisadi əlaqələrin genişlənməsi məqsədilə potensial imkanlar araşdırılıb, bu sahənin daha da inkişafına ümid bəslənildiyi vurğulanıb. 2007-ci il fevralın 23-də Bakıda keçirilən və 40-dan çox iş adamının iştirak etdiyi Azərbaycan-Moldova biznes-forumunda qarşılıqlı sərmayələr və ticarət, aqrosənaye, şirniyyat, yüngül sənaye, neft və qeyri-neft sənayesi, turizm sahəsində əməkdaşlıq üçün əlverişli mühitin yaradıldığı diqqətə çatdırılıb. Bundan bir il sonra isə Moldovanın Azərbaycanda "Ticarət Evi" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlayıb.

Azərbaycan – Moldova əməkdaşlığının getdikcə genişlənməsi mədəniyyət sahəsinə də öz müsbət təsirini göstərib. 2005-ci il aprelin 21-də Prezident İlham Əliyevin Moldovaya səfəri zamanı paytaxt Kişinyovda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin təntənəli açılışı, 2007-ci ilin mayında Kişinyov və Komrat şəhərlərində Azərbaycan Mədəniyyəti günlərinin, 2008-ci il aprelin 23-də isə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Moldova mədəniyyəti günlərinin reallaşdırılması bunun bariz ifadəsidir.

Nəhayət, yuxarıda xatırlatdığımız kimi, Azərbaycan və Moldova separatizmdən əziyyət çəkən ölkələrdir. Dağlıq Qarabağ və Dnestryanı münaqişələrin həllində hər iki respublika vahid mövqedən çıxış edir. Moldova Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipi daxilində həll edilməsinin tərəfdarıdır.

Azərbaycan və Moldova prezidentləri dəfələrlə ölkələrin ərazi bütövlüyünü dəstəklədiklərini bəyan ediblər. Hər iki dövlət 1997-ci ilin oktyabrında yaradılan GUAM Təşkilatının təsisçisidir, həmçinin Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür. Moldova və Azərbaycan, eyni zamanda, həmin təşkilatlar çərçivəsində iqtisadi, siyasi və digər sahələrdə əməkdaşlıq edirlər. Onlar Avropa Şurasının üzvüdürlər və 1994-cü ildən NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulublar.

Yeri gəlmişkən, burada bir məsələni də xatırlatmaq istərdik. Bu il iyunun 22-də Moldova Respublikasının Prezidenti İqor Dodon ölkəmizdə rəsmi səfərdə olub. İqor Dodon hələ səfər ərəfəsində Rusiyanın TASS agentliyinə müsahibəsində deyib ki, ölkələrimiz arasında siyasi dialoq, ticari-iqtisadi əməkdaşlıq, mədəni-humanitar əlaqələr, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əlaqələr yaxşı səviyyədədir. Hər iki respublika birgə səylərlə bütün istiqamətlər üzrə konstruktiv və faydalı əməkdaşlığın genişlənməsində yeni sanballı nəticələr əldə edə bilər.

İ.Dodon, eyni zamanda, qeyd edib ki, keçən il iki ölkə arasında qarşılıqlı ticarətin həcmi 39 faiz artmasına baxmayaraq, bu, dəyər ifadəsində çox deyil və hazırda 5 milyon dollar civarındadır. "Əmtəə dövriyyəsi hələlik çox deyil və dövlətlərimizin əməkdaşlıq imkanlarını tam əks etdirmir. Bu göstəricini artırmaq üçün birgə fəaliyyət zəruridir", - deyən Moldova Prezidenti daha sonra xatırladıb ki, iki ölkə arasında qarşılıqlı fəaliyyətin böyük potensialı var – təkcə Moldovada Azərbaycan kapitalına əsaslanan 111 müəssisə qeydiyyata alınıb, iki ölkənin təsərrüfat subyektlərinin iştirakı ilə investisiya layihələri həyata keçirilir.

Prezident, eyni zamanda, belə bir fikir də söyləyib ki, Moldova ilə Avropa İttifaqı arasında qüvvədə olan azad ticarət rejimi Azərbaycan şirkətlərinin investisiyalarını bu respublikada Moldovada xammal emalı və Avropa ölkələrinin bazarlarına ixrac olunan əmtəə istehsalı sektoruna cəlb etmək üçün əlavə imkanlar yaradır. Kişineu energetika sahəsində əlaqələrin, o cümlədən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə qarşılıqlı münasibətlərin fəallaşdırılmasında, Moldovada dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair tenderlərdə Azərbaycan şirkətlərinin iştirak etməsində də maraqlıdır.

Prezident İlham Əliyev mətbuata bəyanatında bildirib ki, hər iki ölkənin ticari-iqtisadi əməkdaşlıq sahəsində yaxşı potensialı var. Artıq Azərbaycanın müəyyən qurumlarına müvafiq təlimatlar verilib ki, əmtəə dövriyyəsinin artırılması ilə əlaqədar məsələlərin razılaşdırılması prosesi sürətlənsin. Bunun üçün isə yaxın vaxtlarda hökumətlərarası birgə komissiyanın toplaşacağı nəzərdə tutulur. Çoxdan bəri toplaşmayan həmin komissiyanın iclasında qarşılıqlı ticarətin necə artırılması, investisiyalar üzrə hansı imkanların olması, şirkətlərin birgə iştirak edə biləcəkləri hansı infrastruktur layihələrinin mövcud olması kimi mühüm məsələlər müzakirə ediləcək.

Dövlətimizin başçısı, həmçinin diqqətə çatdırıb ki, Azərbaycanın Moldova ilə energetika və nəqliyyat sahələrində əməkdaşlığının da böyük perspektivləri var. Azərbaycan mühüm nəqliyyat və enerji layihələri həyata keçirir. Bu layihələr artıq çoxdan ölkəmizin hüdudlarından kənara çıxıb. Həmin istiqamətdə moldovalı tərəfdaşlarımızla əməkdaşlıq etmək maraqlı olardı.

Moldova Prezidenti İqor Dodonun bəyanatında isə iki ölkə qarşısında duran vəzifələr – iqtisadiyyat, humanitar-sosial və siyasi istiqamətlər konkret şəkildə açıqlanıb. Təzliklə hökumətlərarası komissiyanın iclasının keçirilməsi, iki ölkənin iş adamlarının görüşünün təşkil edilməsi, Moldovanın regionlarında müəyyən konkret sosial layihələrin icrasına başlanılması, siyasi sahədə yeni konkret addımlar atılması məsələləri xatırladıb.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*